# Bakı Bələdiyyə teatrının uğurları

**Müasir Azərbaycan mədəniyyətinin ayrılmaz qolunu təşkil edən teatr məkanında yaşı çox da olmayan Bakı Bələdiyyə Teatrının əhəmiyyətli rolu vardır. Son on ildə milli teatr məkanında durğunluqla müşahidə edilən vəziyyət şəraitində Bakıda yeni bir biçimdə fəaliyyət göstərən bu sənət ocağı teatr tənqidçiləri tərəfindən də tarixi bir hadisə kimi yüksək qiymətləndirilir.**

Sənət baxımından əlavə, həmin hadisənin tarixiliyini qüvvətləndirən başlıca məqam Bələdiyyə Teatrının, Azərbaycan dövlətçiliyinin "ölüm, ya qalım?!"- kimi deyimin qarşısında durduğu bir vaxtda cəsarətli bir addım kimi yaranması ilə bağlıdır. Həqiqətən də, Respublikanın teatral həyatında yeni abu-hava, nəfəs kimi dəyərləndirilən bu sənət ocağının meydana gəlməsinin obyektiv səbəblərini, məhz 1980-90-cı illərin əvvəllərində baş verən tarixi şəraitlə izah etmək daha düzgün olardı. Həmin illərdə Azərbaycanın ictimai-siyasi, mədəni həyatında baş verən kəskin hadisələr, gərginlik və böhranlar Bakı Bələdiyyə teatrının təşəbbüskarı və yaradıcısı olan tanınmış aktrisa Amaliya Pənahovanın qəlbində oyanan arzunun reallaşmasını sürətləndirdi. Xüsusilə, 90-cı illərin lap əvvəllərində Azərbaycan Akademik Dram Teatrının müəyyən yaradıcı qrupunun tanınmış aktrisaya qarşı edilən haqsız itdihamlarından beziklik, digər tərəfdən, məhz həmin illərdə sənətkarın Türkiyə, Almaniya qastrolları, buradakı uğurlu oyunlar və qardaş xalqın teatral həyatındakı sağlam yaradıcılıq mühiti və yenilikləri Amaliya xanımın qəlbində yeni bir sənət məbədini yaratması ideyasını şöləlndirdi.

Bu mütərəqqi və müqəddəs ideyanın həqiqətə çevrilməsi faktı isə ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Aktrisa 1992-ci ilin payızında Naxçıvanda ulu öndərlə şəxsi görüşü zamanı teatr yaratmaq barədə xeyir-duanı və rəsmi göstərişi elə buradaca aldı. Elə həmin il noyabrın 10-da Amaliya Pənahova həm bədii rəhbər, həm də direktor vəzifəsinə təyin olundu. Şübhəsiz ki, teatr yaranışı ilə teatral aləmdə bu sənət ocağının fəaliyyətini hansı prinsiplər əsasında quracağı, hansı yaradıcılıq sisteminə üstünlük verəcəyi məsələləri barədə suallar doğurdu. Həmin sual və şübhələrə Amaliya Pənahovanın cavabı qətiyyətli oldu.

Belə ki, həm teatrın bədii rəhbəri, həm də direktoru kimi o bildirdi ki, Bakı Bələdiyyə teatrı özünü yaşı bir əsrdən çox olan Azərbaycan teatrının varisi edir və öz gələcək fəaliyyətində bu teatr milli teatrın ən gözəl ənənələrini davam etdirmək və zənginləşdirməyi prioritet hesab edir. Əlbəttə, yeniliklərə şübhə və tərəddüdlə yanaşılan bütün hallarda olduğu kimi Bələdiyyə teatrının da davamlı və uzunömürlü olacağına inanmayanlar da çox idi. Lakin istər sənət yaradıcılığı, istərsə də kollektivi idarəetmə, istedadları arayıb-seçmək bacarığına malik olan xalq artisti Amaliya Pənahova böyük bir yaradıcı-işgüzar kollektiv yarada bilmiş, ən başlıcası isə, bunun sayəsində milli mədəniyyətin inkişafı kimi müqəddəs bir vəzifəni yerinə yetirməkdədir.

Bakı Bələdiyyə teatrının gücü onun istedadlı aktyor - rejissorlardan ibarət truppaya malik olması ilə izah edilir. Teatrda gənc, sənət yoluna yenicə qədəm basan pedoqoqlarla bərabər, böyük yaradıcılıq yolu keçmiş, görkəmli sənətkarlar, orta nəslin nümayəndələri birgə çalışırlar. Nəsillərin varisliyi qanunuyğunluğuna əsasən üç yaradıcı nəslin qovuşması tamaşadan - tamaşaya özünün müsbət təsirini göstərə bilir.

Bakı Bələdiyyə Teatrı öz yaranışı ilə elə ilk vaxtlardan bütün şübhə və tərəddüdlərə son qoydu. Olduqca qısa bir vaxtda - 1993-cü ilin yanvarında fransız yazıçısı Jan Anuyun süjeti antik yunan dramaturgiyasından götürdüyü "Medeya" faciəsi çox teatrın böyük uğurla səhnələşdirdiyi ilk tamaşası oldu. Tamaşanın quruluşcu rejissorları xalq artisti, Dövlət mükafatları laureatı Amaliya Pənahova, əməkdar incəsənət xadimi Mərahim Fərzəlibəyov olmaqla rolları Amaliya Pənahova (Medeya), əməkdar artist Nürəddin Quliyev (Jazon), xalq artisti Sofiya Bəşirzadə (dayə), Füzuli Hüseynov, Məmməd Verdiyev (Kreon) oynayırdılar. Böyük müvəffəqiyyətlə oynanılan bu tamaşa yaradıcı kollektivə ilk şöhrət və uğur gətirməklə yanaşı, həm də yeni yaranmış teatr kimi həm sənət ictimaiyyəti qarşısında özünütəsdiq və özünəinanımın formalaşmasında əhəmiyyətli təsirini göstərdi.

Digər tərəfdən xalq artisti Amaliya Pənahovaya sual verildikdə: - nə üçün, məhz ilkin olaraq fransız yazıçısının "Medeya"sını oynayırsınız? - sualını verdikdə, teatrın rəhbəri belə cavablandırdı ki, Anyunun "Medeya"sı həmişə müasirdir. Hər kəs bu əsərdən ibrət götürə bilər. Bu insanı düşündürən, onu lazımsız vərdişlərdən, pis əməllərdən çəkindirən, doğru yol göstərən əsərdir. Bu qan tökənlərə, insanı məhvə aparan hər cür müharibələrə qarşı



etirazdır. Bu kimi əsərlərə 1992-ci ildə də böyük ehtiyac vardı. "Medeya" ilə öz sözümüzü dedik, ürəklərimizi boşaltdıq (1, s. 72).

Bakı Bələdiyyə teatrının ardıcıl uğurlarının əsas göstəricilərindən biri də, məhz repertuarın ictimai və dövrün şərait və maraqları, tələblərinə uyğun tərtibi prinsipləri ilə bağlıdır. Yuxarıda qeyd edildiyi kimi, haqqında danışılan teatr Azərbaycan xalqının tarixinin ən ağır çağlarında yaranmışdı. Azərbaycan torpaqlarının ədalətsiz işğala məruz qalması, insanlarda hərbi vətənpərvərlik duyğularının gücləndirilməsi tələbi tarixi şəraitin obyektiv zərurətlərindən birinə çevrildi.

Bu məqsədlə 1993-cü il martın 17-də teatrın bədii şurasının yığıncağında Oktay Altukbayın "Tomris" pyesinin səhnəyə qoyulması haqqında müzakirə keçirildi. Çox qısa bir müddətdə istedadlı yaradıcı qrup "Tomris" pyesini səhnələşdirərək teatrsevərlərin ixtiyarına verdi. Tamaşaya həm rejissorluq edən və əsas qəhrəman "Tomris"in ifaçısı Amaliya Pənahova, Kir rolunu oynayan Nurəddin Quliyev, Arxalananı oynayan Əfqan Sultanov, Odaxırı oynayan Mahir Vətənhax və Aslan Şirinov və başqaları Azərbaycan xalqının çox ağır vaxtlarında maraqla izlənilən bir səhnə tamaşası yaratdılar. "Tomris" tamaşası istər Amaliya Pənahova yaradıcılığına, istərsə də Bakı Bələdiyyə teatrının fəaliyyət nüfuzuna əhəmiyyətli dərəcədə təsir göstərdi. Hətta dövrü mətbuatda, teatr tənqidçilərinin yazılarında bu tamaşanın hazırlanmasında Amaliya Pənahovanın vətənpərvərlik duyğularını, qəhrəmanlıq hisslərinin zənginliyi və coşqunluğu ilə təhlil edənlər də var idi.

Tamaşaya quruluş verən Amaliya Pənahova əsərə çox həssaslıq və yardıcılıqla yanaşaraq, hətta pyesə ikinci müəlliflik etməyə cəhd göstərməklə Azərbaycanın reallıqları ilə səsləşən yeni monoloqlar əlavə etmək cəsarətini üzərinə götürmüşdü. Bunu etməkdə rejissorun əsas məqsədi tamaşada vətənpərvərlik, qəhrəmanlıq, düşmənə nifrət hisslərini gücləndirmək idi. Tamaşanın dinamikası elə qurulmuşdu ki, sanki əsərdəki hadisələr müasir Azərbaycanda cəryan edir. Ona görə də, bu tamaşa Bakı Bələdiyyə Teatrının tarixi qəhrəmanlıq tamaşası olmaqla güclü təsirə malik bir əsər kimi özünü doğrultdu. Teatr tənqidçiləri də "Tomris"i Bakı Bələdiyyə teatrına nüfuz gətirən zəngin bir tamaşa kimi qiymətləndirmişlər.

Azərbaycan reallıqlarının nəbzini tutmağı bacaran Bakı Bələdiyyə teatrı müharibə, hərbi vətənpərvərlik, düşmənə nifrət ruhunda səhnələşdirilmələrinə görə mətbuatda, teatr ictimaiyyəti arasında "döyüşən teatr" kimi tanınmağa başladı. Bu adın qazanılmasında teatrın repertuarında "Tomris"dən sonra 1994-cü ilin əvvəllərində Rauf İçərişəhərlinin "Vətənə igidlər gərəkdir" adlı pyesinin tamaşaya qoyulması mühüm yer tutdu. İki hissədən ibarət olan bu pyesin müəyyən nöqsan, dramaturji zəifliyinə baxmayaraq, tamaşa qəhrəmanlıq pafosu, vətənpərvərlik hissi ilə nəzəri cəlb etdi.

Pyesin qəhrəmanları Amaliya Pənahova (Fatma nənə), Muxtar Avşarov, Tofiq Hüseynov (Seyid ağa), Mahir Vətənhax, Mehman Abdullayev (Rüstəm), Təzəgül Əliyeva, Esmiralda Şahbazova (Əsmər), Azad Şükürov (Cavanşir), Amaliya Pənahova, Elmira Əliyeva (Salatın), Rafiq İbrahimov (Fikrət), Aydın Əliyev, Arzu Hüseynov (Ruben) və s. aktyorlar oynayırdılar. Tamaşaya rejissorluq edən Amaliya Pənahova dramaturq tərəfindən işlənilməyən bəzi məqamları əsərin səhnə təcəssümünün çox canlı, həyacanlı və təsirli alınması məqsədilə yenə də epizodlar əlavə etmişdir. Tamaşanın qəhrəmanlıq pafosunun gücləndirilməsi üçün quruluşcu rejissor obrazların xarakter cizgilərini düzgün təyin etmişdir. Bakı Bələdiyyə teatrında, xüsusilə, hərbi vətənpərvərlik tematikasında hazırlanan tamaşaların ideya - siyasi, məzmun - süjet xəttinin daha real və obyektiv səciyyə daşımasında Azərbaycan Respublikasının Müdafiyə Nazirliyi və Daxili Qoşunlar rəhbərliyinin məsləhət və tövsiyələrindən bacarıqla istifadə edilir. Bu xüsusiyyət həmin teatrın repertuarının həyatla bağlılığına, dövrün tələb və maraqlarına cavab verməsi prinsipinə diqqətlə yanaşılmanın əyani sübutudur.

Qeyd etmək lazımdır ki, Bakı Bələdiyyə teatrının "döyüşən teatr" kimi tanınmasına şərait yaradan əsas məqamlardan biri də bu sənət ocağının hərbi bölmə, qospital və Vətənə xidmət edən əsgərlər qarşısında rəngarəng konsert proqramları ilə çıxış etmələridir. 1993-cü ilin payızından başlayaraq Respublikada müharibə şəraiti nəzərə alınaraq cəbhə bölgələri, hərbi qospitallarda çıxış etmək məqsədilə Teatr truppası Cəfər Cabbarlının "Solğun çiçəklər", Sabir Rüstəmxanlının "Sönmüş ocağın acısı", həmçinin "Köhnə Bakı" tamaşalarından səhnələrin məşqlərinə başlanıldı. Bundan başqa Azərbaycan şairlərinin vətənpərvərlik mövzusunda yazdıqları şerlərdən tərtib olunmuş xüsusi konsert proqramları da daxil olmaqla "döyüşən teatr" Gəncə, Murov, Göygöl, Ağsu, Bakı hərbi bölgələrində çıxışlar etmişlər.

Cəmiyyətin həyatında artıq az aktiv fəallığı ilə geniş ictimaiyyətin nüfuzunu qazanmış Bakı Bələdiyyə teatrı repertuar zənginliyinə, rəngarəngliyinə xüsusi həssaslıqla yanşır. Bakı Bələdiyyə teatrının fəaliyyətini izləyən İran İslam Respublikası müəllif S.Rəşidinin yazdığı "Mənim Ərdəbilim" adlı musiqili komediyanın tamaşasının hazırlanmasını bu teatra sifariş etməsi faktı da bu sənət ocağının geniş yaradıcılıq diapazonuna malik olması ilə izah edilir. Əsasən dramatik - faciəvi tamaşalar oynayan teatrın repertuarında bu sifariş yenilik oldu. Tamaşa 1994-95-ci ilin teatr mövsümünün açılışında oynanıldı. İki pərdə, üç şəkildən ibarət olan "Mənim Ərdəbilim" əsəri ictimai-siyasi maraqdan uzaq, yüngül məzhəkəyə yaxın əyləndirici bir tamaşa idi. Tamaşada əsas məqsəd pulgir, əliəyri, oğru, yalançı, hiyləgər, fırıldaqçı, dələduz, böhtançı və digər bu kimi mənfi keyfiyyətlərə malik olan baqqalları ifşa etməkdən ibarət idi. Əsas rolları ifa edən aktyorlar Məhəmməd Şahməmmədov (Nadir), Azad Şükürov (Kənan Pur), Aydın Əliyev (Həşim ağa), Muxtar Avşarov (Əlişir), Əf-

qan Sultanov (Kərim) obrazların komizm çalarları ilə dramatik məqamları məharətlə sintez etməklə çox maraqlı personajlar yaratmışlar.

Əsərin səhnələşdirilməsindən, bütün yaradıcı heyətin - tamaşanın quruluşçu rejissoru (Amalya Pənahova), quruluşçu rəssam (Tahir Tahirov) və bəstəkarın (Faiq Şücəddinov) istedad və qabiliyyətindən məmnun olan İran İslam Respublikasının Bakıdakı səlahiyyətli səfiri və Səfirliyin əməkdaşları Süleyman Rəşidinin "Mənim Ərdəbilim" tamaşasını yaxşı qiymətləndirmiş və bunu Azərbaycan - İran dövlətləri arasında dostluq və qonşuluq əlaqələrinin möhkəmləndirilməsində böyük rol oynadığını xüsusi olaraq vurğuladılar.

Bakı Bələdiyyə teatrının məhz bu aspektdə - xalqlar arasında dostluq münasibətlərinin qurulması işindəki fəaliyyətinin digər nümunəsinə teatrın Türkiyə qastrollarını da misal çəkmək olar. Teatrın bu ölkəyə ilk qastrolu Türkiyə Cümhuriyyətinin yaradılmasının 71-ci il dönümü şənliklərində iştirak etmək üçün Ərzuruma oldu. Həmin ilin noyabrında (2-dən 26-na kimi) Bakı Bələdiyyə teatrı Qars, Ərzurum, Van, Ağrı şəhərlərində böyük uğurla çıxış etmiş, teatrlaşdırılmış xüsusi konsert proqramı ilə türkiyəliləri öz bacarıqları ilə tanış etmişlər.

Heç şübhəsiz ki, Bakı Bələdiyyə teatrının bu çıxışları uzun bir tarixi fəaliyyətdən sonra Azərbaycan - Türkiyə kimi qardaş xalqın mədəniyyətlərinin və teatr sənətlərinin daha da yaxınlaşması, bu sahədə mədəni əlaqələrin möhkəmlənməsinə əhəmiyyətli və güclü təkan oldu. Artıq bu beynəlxalq əlaqələri ilə Bakı Bələdiyyə teatrı Respublikanın teatral aləmində özünün mövcudolma və yaşamaq zərurətinin vacibliyini bir daha sübut etmiş oldu. Hətta xaricdə yüksək səviyyədə qarşılanan teatrın kollektivi öz yaradıcılıq potensialını tam əhatəliyi ilə nümayiş etdirmək üçün yeni-yeni səhnə əsərlərinə müraciət etdi.

1994-cü ildən başlayaraq bir-birinin ardınca Nəriman Nərimanovun "Nadir Şah" faciəsi, türk yazarı Əziz Nesinin "Tənha qadınlar" pyesi, Abdulla Qurbaninin "Daş andı", fransız yazıçısı Marsel Bergiye Marinyenin "Məhəbbətin qiyməti" və Hafiz Fətullayevin "Bəyaz dünya" əsərlərinin "Ağ və qara" adlı pyes əsasında hazırlanması (1998-ci il dekabr), Əmir Pəhləvanın "İnsan və iblis" (1999), Nigar Rəfibəylinin "Məhsəti" (1999), Altay Məmmədovun "Dəli Domrul", ssenari müəllifi və quruluşçu rejissoru Ələddin Əliyevə məxsus "Unutqanlıq qorxunc bəladır" adlı mənzum tamaşa (2000), Cəfər Cabbarlının "Dönüş" pyesi, C.Məmmədquluzadənin "Ölülər" pyesi (2001), türk dramaturqu Nazim Hikmətin "Damokl qılıncı" pyesi (2002-ci il), Ələddin Əliyevin "Cırtdan Məlikməmməd və üç gözəl" nağıl - pyesi (2002), M.F.Axundovun "Müsyo Jordan və Dərviş Məstəli Şah" komediyası, Sofoklun "Elektra" faciəsi (2003-cü il) və başqaları Bakı Bələdiyyə teatrının yaranmasının 10 illik yubileyi ərəfəsində hazırladığı tamaşa repertuarı idi. Repertuar tematikasından bu sənət ocağının fəaliyyət uğurlarını aydın şəkildə görmək mümkündür.

Məhz bu səbəbdəndir ki, Bakı Bələdiyyə teatrının 10 illik yubileyi ərəfəsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 7 noyabr 2002-ci il tarixli fərmanına əsasən teatrın 23 əməkdaşı ölkənin yüksək fəxri adları ilə təltif olundu. Yaşı kiçik olan yaradıcı kollektivin belə böyük sayda əməkdaşının (onlardan əksəriyyətinin yaradıcılıq fəaliyyəti digər teatrlarla da bağlı olmuşdu) ölkə rəhbərinin fəxri adına layiq görülməsi istər dövlət, istərsə də ölkə ictimaiyyətinin bu sənət ocağına olan inamının təzahürüdür. Bu inamın məsuliyyətini dərk edən Bakı Bələdiyyə teatrının kollektivi hazırda yaradıcılıq fəaliyyətinin təkmiləşmə dövrünü yaşayır. Hələ teatrın neçə-neçə sənət uğurları irəlidədir.

● **Gülsabah QULİYEVA,**
***ADMİU-nun Səhnə danışığı kafedrasının dosenti, Respublikanın əməkdar artisti***

## Ədəbiyyat

1. Abdulla Qurbani. Döyüşən teatr. B. "Əbilov, Zeynalov və oğulları", 2002, 208 səh.
2. İnqilab Kərimov. Bakı Bələdiyyə Teatrı. "Çinar - Çan", 2008. 488 səh.
3. Pənahova A. Aktyor yaradıcılığında obrazın yaranma prossesində ifaçının ikinci plan duyumu və onun təcəssüm vasitələri. B., 2007, 375 səh.
4. Pənahova A. Yaradıcı obrazların ikinci planı. B., 2001, 236 səh.

## Резюме

### Творческие успехи Бакинского Муниципального Театра

Бакинский Муниципальный Театр играет особуй роль в развитии театральной культуры Азербайджана. Театр образован в осенью 1992 года по инициативе народной актрисы республики Амалии Панаховой. Творческие успехи данного театра обеспечиваются некоторыми факторами. Одним из основных факторов является богатый репертуар театра.